**UOT: 327**
https://doi.org/10.59849/2409-4838.2025.1.79

# SOYUQ MÜHARİBƏ DÖVRÜNDƏ LİBERAL BEYNƏLXALQ NİZAM VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

**Rafiq Həmzə oğlu İbrahimov**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
ibrahimovrafiq123@gmail.com

*Bu məqalədə Soyuq müharibə dövründə liberal beynəlxalq nizamın əsas xüsusiyyətlərinə nəzər yetirilir. Məqalənin giriş hissəsində nizam anlayışına və nizamla bağlı realizm məktəbinin qabaqcıl alimlərindən biri olan Con Merşaymerin fikirlərinə yer verilir və İkenberri və Doydneyin struktural liberalizm nəzəriyyəsi vasitəsilə neorealistlərə cavab verməyə çalışması bildirilir. Daha sonra İkinci Dünya Müharibəsindən sonra liberal beynəlxalq nizamın niyə və necə formalaşmasına qısaca toxunulur. Növbəti hissədə isə Con İkenberri və Daniel Doydneyin irəli sürdüyü struktural liberalizm nəzəriyyəsinə diqqət yetirilir və birgə qoşulma siyasəti, hegemon dövlətin qərarlarına ikinci dərəcəli və zəif dövlətlərin müdaxilə imkanları, Almaniya və Yaponiyanın yarısuveren statusu və qismən böyük güc hesab edilməsi, liberal demokratik dövlətlər arasında məhsul və xidmətlərin sərbəst hərəkəti və bu Qərb vətəndaşlarının oxşar və ya ümumi dəyərləri özündə ehtiva edən vətəndaş kimliyinə sahib olması liberal beynəlxalq nizamın əsas xüsusiyyətləri kimi nəzərdən keçirilir.*

***Açar sözlər:*** *liberal beynəlxalq nizam, Soyuq müharibə, ABŞ, hegemon, Qərb*

## GİRİŞ

Soyuq müharibə dövründə formalaşan beynəlxalq nizamın hansı xüsusiyyətlərə sahib olması ilə bağlı həm realistlər, həm də liberallar özünəməxsus iddialarla çıxış etmişlər. Realistlər qüvvələr balansı [10] və hegemoniya nəzəriyyəsinə [2] əsaslanaraq bu dövrdə mövcud olan, həmçinin SSRİ-nin süqutundan sonra yaranan nizam barədə daha pessimist fikirlər bölüşmüşlər. Belə ki, realizm tərəfdarlarına görə soyuq müharibə dövründə Qərb liberal demokratiyalarının daxil olduğu regional və beynəlxalq institutlar, o cümlədən onların öz aralarındakı müttəfiqlik münasibətləri məhz sovet blokunu balanslaşdırmaq xarakteri daşımışdır. Buradan çıxış edərək realistlər ötən əsrin 90-cı illərində proqnozlaşdırırdılar ki, SSRİ-nin süqutu ilə bu institutlar və müttəfiqlik münasibətləri öz legitimliyini itirərək tədricən dağılmağa başlayacaqdır. Hətta hələ SSRİ süqut etməmişdən əvvəl öz qoşunlarını Şərqi Avropadan geri çəkməsi və Qərbi və Şərqi Almaniyanın birləşməsi nəticəsində Avropada qitəsində böyük güclərin yenidən dirçəlməsi ilə gözlənilənin əksinə olaraq münaqişə və müharibə meyillərinin daha da artacağı ilə bağlı ciddi elmi iddialar mövcud idi [7, s. 6, 31-40]. Hegemoniya tərəfdarlarının fikrincə isə Qərb liberal demokratiyaları arasındakı sıx əməkdaşlıq məhz ABŞ-nin postmüharibə dövründəki hegemon statusundan irəli gəlir və ABŞ-nin tədricən öz gücünü itirməsi, eyni zamanda yeni böyük güclərin meydana gəlməsi ilə bu əməkdaşlıq münasibətləri dayanıqlılığını itirəcək və sona çatacaqdır [1, s. 179-180].

Realizmin aparıcı fiqurlarından hesab edilən Con Merşaymer nizamı əhatə dairəsinə görə regional və beynəlxalq, mahiyyətinə görə isə realist, liberal və aqnostik olmaqla təsnifləşdirir və yalnız böyük güclərin nizam yaratmaq potensialına sahib olduğunu qeyd edir [8, s. 9-16]. O, nizamın mahiyyətinin güc bölgüsündən asılı olduğunu iddia edərək beynəlxalq sistemdə iki və daha çox böyük güc olduğu təqdirdə realist, yalnız bir böyük güc olduqda isə həmin böyük gücün idarəetmə rejimindən asılı olaraq liberal yaxud aqnostik nizamın formalaşa biləcəyini vurğulayır.

Merşaymer Soyuq müharibə zamanı üç nizamın mövcud olduğunu diqqətə çatdırır: iki regional və bir beynəlxalq [8, s. 18-21]. Burada ABŞ və SSRİ-nin ayrı-ayrılıqda öz müttəfiqləri ilə birlikdə yaratmış olduğu regional nizam ilə bütün dövlətlərin daxil olduğu beynəlxalq nizam bir-birindən fərqləndirilir. Merşaymerə görə hər üç nizam mahiyyətcə realist xarakter daşımışdır. Əvvəla, ABŞ və SSRİ ayrı-

ayrılıqda sahib olduğu müqayisəolunmaz güc sayəsində regional nizam yaratmağı bacarmışdır (hegemoniya nəzəriyyəsi) və qarşı tərəflə təhlükəsizlik rəqabəti aparmaq və onu balanslaşdırmaq məqsədilə NATO və Varşava paktı kimi hərbi alyanslar, o cümlədən Bretton Vuds və Komekon kimi iqtisadi qayda və institutlar yaranmışdır. NATO-ya üzv olduqdan sonra qeyri-demokratik rejimlərin qurulduğu Yunanıstan və Portuqaliya kimi dövlətlərin NATO-dan çıxarılmaması, habelə ABŞ-nin dünyanın müxtəlif bölgələrində demokratik yolla seçilmiş hökumətləri devirməsi nizamın realist xarakterindən xəbər verir. Merşaymer daha da irəli gedərək liberal nizamın əsas xüsusiyyətlərindən hesab edilən nizama üzv dövlətlər arasında azad ticarət və investisiya siyasətinin də strateji məqsədlər güddüyünü bildirir. Başqa sözlə, hər iki regional nizamın əsas məqsədi bu və digər tədbirlərlə qarşı tərəfi çəkindirmək və sonunda məğlub etməkdən ibarət olmuşdur [8, s. 18-21]. Eyni zamanda ABŞ və SSRİ-nin və onların müttəfiqlərinin də daxil olduğu beynəlxalq nizamın mahiyyəti də həmçinin realist – qüvvələr balansının prinsiplərinə söykənmişdir.

Daniel Doydney və Con İkenberri "Liberal beynəlxalq nizamın təbiəti və mənbələri" adlı birgə məqaləsində yuxarıda qeyd olunan realist arqumentlərə alternativ olaraq struktural liberalizm nəzəriyyəsini irəli sürür. Müəlliflər iddia edir ki, realistlər Qərb liberal demokratiyalarının öz aralarında formalaşdırdığı nizamın mahiyyətinə dərindən varmır və onun əsas hərəkətverici amillərini nəzərdən keçirmir. Struktural liberalizm isə Qərb regional siyasi nizamı ilə bağlı nəinki realistlərin görməzdən gəldiyi məsələləri işıqlandırır, həmçinin demokratik sülh, mürəkkəb qarşılıqlı asılılıq, plüralist təhlükəsizlik cəmiyyətləri kimi liberal nəzəriyyələrin cavab verə bilmədiyi yaxud vermədiyi suallara aydınlıq gətirməyə çalışır [1, s. 180]. Başqa sözlə, struktural liberalizm liberal beynəlxalq nizamın mahiyyətini və özünəməxsus xüsusiyyətlərini izah etməyə cəhd edən nəzəriyyədir. Bu nəzəriyyənin irəli sürdüyü əsas arqumentlərə nəzər yetirməmişdən əvvəl ABŞ-nin postmüharibə nizamını necə formalaşdırmasına diqqət etmək gərəkir.

## ƏSAS HİSSƏ

### İkinci Dünya Müharibəsindən sonra liberal beynəlxalq nizamın yaranmasını şərtləndirən amillər

ABŞ Prezidenti Franklin D. Ruzvelt azad ticarət münasibətlərinə və sistemin bütün böyük gücləri arasında əməkdaşlığa əsaslanan postmüharibə nizamı qurmaq niyyətində idi [3, s. 76]. Lakin gözləniləninin əksinə olaraq Avropa qitəsini yenidən qurmaq, Almaniya və Yaponiyanı bu nizama inteqrasiya etmək, Sovet kommunizminin yayılmasının qarşısını almaq kimi qayğılar ABŞ-ni nizamın mərkəzinə gətirib çıxartdı. Nəticədə əvvəla, liberal nizam beynəlxalq miqyas almadı, müəyyən bir regionla məhdudlaşdırılaraq daha iyerarxik struktura malik oldu və ABŞ bu nizamı birbaşa siyasi və iqtisadi baxımdan idarə etməyə başladı [3, s. 76]. Bu məqsədlə ABŞ liderləri 1944-1951-ci illər arasında dünya tarixində görünməyən səviyyədə həm təhlükəsizlik, həm də iqtisadi sahədə institutqurma fəaliyyəti ilə məşğul olmuşlar [4, s. 159]. Postmüharibə nizamı iyerarxik struktura malik olsa da, ABŞ-nin Avropa və Asiya dövlətləri ilə siyasi, iqtisadi və təhlükəsizlik sahəsində əldə etdiyi razılaşmaları da özündə əks etdirmişdir [4, s. 160]. Bu nizamla bağlı aşağıdakı fikirləri söyləmək olar:

Birincisi, postmüharibə nizamı qüvvələr balansı, ağalıq və razılıq nizamının [4, s. 35-77], yəni hər üç nizam növünün mexanizmlərini özündə ehtiva edərək unikal xarakterə sahib olmuşdur. Bununla da iyerarxiya və dominantlıq kimi prinsiplər razılıq və qanunun aliliyi kimi prinsiplərə nüfuz edərək birləşmişdir. Bu nizama liberal xarakter verən üç əsas xüsusiyyət olmuşdur: ABŞ tərəfindən ictimai xidmətlərin, yəni Avropa qitəsində təhlükəsizliyin təmin edilməsi, qaydalara əsaslanan əməkdaşlıq və ikinci dərəcəli və zəif dövlətlərin qərarlara təsir etmək imkanlarına sahib olması [4, s. 161].

İkincisi, ABŞ-nin rəhbərlik etdiyi postmüharibə nizamı iki miqyası əhatə etmişdir: ümumdünya səviyyəsində və ABŞ və onun müttəfiqləri səviyyəsində [4, s. 161]. Birinci nizam SSRİ ilə təhlükəsizlik rəqabəti şəraitində və qüvvələr balansının prinsipləri əsasında formalaşmışdır. ABŞ və onun müttəfiqləri olan Qərb liberal demokratiyaları arasında isə açıq, stabil, idarə edilə bilən və liberal beynəlmiləl ideyalara söykənən regional nizam qurulmuşdur. Bu

nizam SSRİ-nin süqutuna qədər ikiqütblü nizam çərçivəsində mövcudluğunu qoruyub saxlamağı bacarmış və Soyuq müharibənin sona çatması ilə regional miqyasdan beynəlxalq miqyasa doğru genişlənməyə başlamışdır [4, s. 161].

Üçüncüsü, ABŞ tərəfindən postmüharibə nizamı yaradılarkən onun açıq və qaydalara söykənən beynəlxalq nizam olması nəzərdə tutulurdu [4, s. 161]. Lakin SSRİ təhlükəsi, Avropanın iqtisadi və siyasi baxımdan "yaralı" olması, daxili siyasətdən doğan məhdudiyyətlər və hökumətlərarası institutların qurulması prosesi kimi mürəkkəb səbəblərdən dolayı ABŞ bu nizamın mərkəzində yer almışdır [4, s. 161]. Başqa sözlə, əvvəlcə müstəqil və sərbəst fəaliyyət göstərməsi və özü-özünü tənzimləməsi planlaşdırılan nizamı qeyd edilən səbəblərə görə ABŞ idarə etməyə məcbur qalmışdır.

Beləliklə, soyuq müharibə dövründə liberal beynəlxalq nizamın formalaşma şərtlərinə nəzər yetirdikdən sonra diqqəti Daniel Doydney və Con İkenberrinin ideyalarına yönəltmək olar. Həmmüəlliflər öz arqumentlərini aşağıdakı beş istiqamətdə inkişaf etdirirlər.

**Struktural liberalizmin əsas xüsusiyyətləri**

Birincisi, anarxiya probleminin qarşısını almaq üçün liberal demokratiyalar *birgə qoşulma* (*co-binding – m.*) təcrübəsindən istifadə edirlər. Belə ki, neorealist nəzəriyyənin əsas arqumentlərindən biri beynəlxalq sistemin anarxik olması və bundan irəli gələrək dövlətlərin daim balans yaratmağa məcbur qalmasıdır. Beynəlxalq sistemin yeganə və əsas aktoru hesab edilən dövlətlər sistemin anarxik olması səbəbindən bir-birilə təhlükəsizlik rəqabətindədirlər. Başqa sözlə, bir dövlət təcavüzə məruz qaldıqda hər hansı "dünya hökuməti" yoxdur ki, bu təcavüzün qarşısını alsın və təcavüzkarı cəzalandırsın. Ona görə də sistemi təşkil edən suveren dövlətlərdən biri həddindən artıq güclənərsə, o biri dövlətlər koalisiya formalaşdıraraq onu balanslaşdırmalıdır. Bu proses, yəni balanslaşdırma sistem səviyyəsində gücün mərkəzləşdirilməsinin qarşısını aldığı üçün anarxiyanın əsaslarını daha da möhkəmləndirir. Beləliklə, anarxiya balanslaşdırmanı labüd edir, balanslaşdırma isə öz növbəsində anarxiyanın davam etməsinə "dəstək olur". Doydney və İkenberri isə iddia edir ki, liberal demokratiyalar birgə qoşulma vasitəsilə anarxiya-balans probleminə özünəməxsus həll yolu tapmağı bacarmışlar. Birgə qoşulma dövlətlərin bir-birini institutlara qoşulmağa təşviq edərək və həmin institutlara qoşularaq qarşılıqlı surətdə özlərini məhdudlaşdırmasıdır [1, s. 182]. Qoşulma simmetrik və asimmetrik ola bilər. İmperial nizamda və ya hegemoniyada bu proses asimmetrik xarakter daşıdığı halda liberal dövlətlərin institutlara qoşulması daha qarşılıqlı prinsiplər əsasında baş tutur. Bununla iyerarxik sistem yaradılmır, amma anarxiyanın səbəb olduğu nəticələr aradan qaldırılır. Yəni dövlətlərin onların suverenliklərini qarşılıqlı şəkildə məhdudlaşdıran institutlara qoşulması sistemin anarxik olması ilə bağlı gözlənilən risk və qeyri-müəyyənlikləri azaldır, eyni zamanda digərlərini hədələmək potensialına malik dövlətin davranışlarını müəyyən çərçivəyə salır və gözlənilən edir. Nəticədə digərlərini hədələmək potensialına malik dövlətə qarşı balans qurmağa ehtiyac qalmır [1, s. 182-183].

Birgə qoşulma iki sahədə inkişaf edə bilər: təhlükəsizlik və iqtisadi [1, s. 183-184]. NATO və onun fəaliyyəti təhlükəsizlik sahəsində birgə qoşulmaya nümunə olduğu kimi Avropa Komür və Polad Birliyi və onun əsasında formalaşan sonrakı institutlar, o cümlədən Avropa İttifaqı iqtisadi sahədə birgə qoşulmaya misal kimi göstərilə bilər. Realistlər NATO-nun meydana gəlməsini sırf qüvvələr balansının prinsipləri əsasında izah etməyə çalışırlar. Doyl və İkenberri bunu inkar etməsə də, NATO-nun yaradılmasında SSRİ-nin balanslaşdırılması ilə yanaşı daha iki səbəbi qeyd edirlər: ABŞ-ni NATO vasitəsilə Avropa qitəsinə bağlamaq və Almaniyanın digər qitə dövlətlərinə təhlükə törətməmək şərti altında yenidən qurulmasına nail olmaq [1, s. 183]. 90-cı illərdə və növbəti iki onillikdə Rusiyadan qitə dövlətlərinə qarşı hər hansı ciddi təhlükə gözlənilməməsinə rəğmən, yəni Rusiyanın balanslaşdırılmasına qəti ehtiyac duyulmadan NATO-nun Avropanın şərqinə doğru genişlənməsi, bu təşkilatın yalnız hərbi-təhlükəsizlik məqsədlərinə xidmət etməsinə əsaslanan nəzəri baxışları ciddi sual altına qoydu. Avropa İttifaqı və onun sələfi olan institutlarının da yaradılmasında məqsəd qitə dövlətlərinin bir-birilə, xüsusilə də Almaniyanın qitə dövlətləri ilə strateji hərbi rəqabət aparmasının qarşısını almaq və bu hərbi rəqabətin aparılması üçün zəruri olan milli ağır sənaye sahələrini bir-birilə sıx əlaqələndirmək idi. Beləliklə, birgə

qoşulma təcrübəsi sayəsində Avropa qitəsində anarxiya və onun dövlətlər üçün yaratdığı davranış stimullarından yayınmaq mümkün oldu.

İkincisi, liberal beynəlxalq nizamın digər əsas xüsusiyyətlərindən biri hegemon dövlətin davranışlarına ikinci dərəcəli və zəif dövlətlərin bu və ya digər mənada təsir göstərə bilməsidir. Neorealist nəzəriyyələrdən biri olan hegemoniya nəzəriyyəsinə görə nizam gücün mərkəzləşdirilməsi nəticəsində yaranır. Bu nizam çərçivəsində formalaşan münasibətlər isə asimmetrik xarakter daşıyır, yəni tabeedən və tabeolan prinisiplərinə söykənir. Nizamın qayda və institutlarını formalaşdıran sistemin ən güclü dövlətinin (hegemonun) gücündən və mövqeyindən irəli gələrək ikinci dərəcəli və zəif dövlətlər ya nizama könüllü qoşulur, ya da hegemon dövlət zorakı üsullardan istifadə edərək ikinci dərəcəli və zəif dövlətləri nizama qoşur. Qeyd edilən perspektivdən baxdıqda İkinci Dünya Müharibəsindən sonra liberal demokratiyalarının daxil olduğu regional nizam məhz ABŞ-nin güc üstünlüyü nəticəsində yaranmışdır. Lakin Doydney və İkenberri bu regional nizamın formalaşmasında iki amilə xüsusi diqqət yetirirlər: birincisi, ABŞ-nin siyasi sistemi; ikincisi, transmilli münasibətlərin geniş yayılması [1, s. 185]. ABŞ-nin liberal demokratik siyasi sistemə sahib olması səbəbindən gücün mərkəzləşməməsi və qərarların qəbulu prosesinə müxtəlif maraq qruplarının təsir göstərmək imkanına sahib olması burada önəmli faktordur. Digər tərəfdən transmilli münasibətlər, xüsusilə də beynəlxalq təşkilatların fəaliyyəti nəticəsində qurulan nizam daha da şəffaflaşır, ikinci dərəcəli və zəif dövlətlər üçün əlçatan olur, eyni zamanda nizam çərçivəsində onların maraqları təmsil olunur və nizamın üzvləri arasında kommunikasiya və konsensusun əldə edilməsi ilə bağlı mexanizmlər meydana gəlir. Nəticədə hegemon dövlət tərəfindən qurulan nizam heç də yalnız hegemonun maraqlarının təcəssümünə çevrilmir, əksinə nizamın üzvləri hegemon dövlətin liberal xarakterindən və transmilli münasibətlərdən irəli gələn təsir rıçaqlarından istifadə edərək dolayısı ilə nizama təsir göstərmək imkanını qoruyub saxlayırlar [1, s. 185]. Bununla da hegemon dövlətin zorakı üsullara əl atmasına ehtiyac qalmır və ikinci dərəcəli və zəif dövlətlər könüllü olaraq nizama qoşulurlar.

Üçüncüsü, Almaniya və Yaponiyanın yarısuveren statusa malik olması və qismən böyük güc hesab edilməsi liberal beynəlxalq nizamı şərtləndirən növbəti amildir. Əvvəla, realizmə görə beynəlxalq sistemi təşkil edən yeganə və əsas vahidlər məhz suveren dövlətlərdir. Lakin heç də bütün suveren dövlətlər beynəlxalq sistemin mahiyyətinə həlledici təsir göstərmək iqtidarında deyil, yalnız digərləri ilə müqayisədə hərbi, iqtisadi, texnoloji və digər sahələrdə daha çox resurslara və potensiala malik böyük güclər sistemin aparıcı fiqurlarıdır. Yuxarıda da müzakirə etdiyimiz kimi anarxiya şəraitində məhz böyük güclər beynəlxalq sistemin və dövlətlərarası münasibətlərin mahiyyətini müəyyən və təyin edir. Amma İkinci Dünya Müharibəsindən sonra yenidən qurulan Almaniya və Yaponiya burada ciddi istisna rolunu oynayır. Belə ki, alçaldıcı məğlubiyyətdən sonra bu dövlətlərin suverenliyi tam bərpa edilməmişdir. ABŞ-nin və qalib dövlətlərin ciddi təzyiqi və təsiri altında yazılan və qəbul edilən Almaniyanın, yalnız ABŞ-nin ciddi təzyiqi və təsiri altında isə Yaponiyanın konstitusiyası bu dövlətlərin suverenliklərini bu və ya digər səviyyədə məhdudlaşdırır. Sözügedən konstitusiyalar həm liberal xüsusiyyətlərə sahibdir, yəni gücün mərkəzləşməməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi və dövlətin federal quruluşa sahib olması kimi liberal elementləri özündə ehtiva edir, eyni zamanda sülhyönümlüdür, yəni həm Almaniyanın, həm də Yaponiyanın yalnız müdafiə məqsədləri üçün hərbi imkanlara sahib olmasını təsbit edir [1, s. 188-189]. Bu xüsusiyyət hər iki dövlətin suverenliyini, həmçinin onların böyük güc kimi formalaşma imkanlarını ciddi şəkildə çərçivəyə salır. Həm Almaniyanın, həm də Yaponiyanın könüllü surətdə böyük güclər sırasında qərarlaşmaq üçün olduqca vacib hərbi alət hesab edilən atom nüvə başlıqlarından imtina etməsi məhdud suverenliyə bariz nümunədir [1, s. 189]. Nəticə etibarilə Soyuq müharibədən sonra realizmin hər iki dövlətlə bağlı ilkin gözləntiləri – onların tam suveren dövlətlər kimi böyük güclərə çevrilməsi özünü doğrultmadı.

Dördüncüsü, dövlətlər arasında məhsul və xidmətlərin sərbəst hərəkəti liberal beynəlxalq nizamın əsas xüsusiyyətlərindən biridir. Neorealizm tərəfdarları dövlətlər arasında ticarət əlaqələrinin inkişafına şübhə ilə yanaşırlar. Burada əsas arqument ondan ibarətdir ki, beynəlxalq sistemin anarxik olması səbəbindən dövlətlər mütləq qazancdan daha çox nisbi qazanca diqqət yetirirlər. Mütləq qazanc tərəflər arasında ticari əməkdaşlıq çərçivəsində tərəflərdən birinin öz mənfəəti ilə bağlı qayğılarını, nisbi qazanc

isə tərəflərin bir-birinin mənfəəti ilə bağlı qayğılarını ehtiva edir. Anarxiya şəraitində isə dövlətlər sərbəst ticarət əlaqələri qurmaqdan çəkinirlər, çünki bu əlaqələr nəticəsində qarşı tərəfin daha çox mənfəət əldə edəcəyindən narahatdırlar. Doydney və İkenberri isə neorealistlərin bu arqumentini mübahisələndirərək qeyd edir ki, dövlətlər mütləq qazanca fokuslana bilmək üçün anarxiyanın təsirlərini minimallaşdırmağa çalışırlar [1, s. 191]. Başqa sözlə, inkişaf etmiş kapitalist iqtisadiyyatına malik sənaye dövlətləri beynəlxalq sistemin strukturunu iyerarxikləşdirmədən anarxiyadan qaçmağa cəhd edirlər. Odur ki, yuxarıda da müzakirə etdiyimiz kimi liberal dövlətlərin anarxiyanın təsirlərindən yayınmaq üçün birgə yaratdığı və qoşulduğu beynəlxalq institutlar və qaydalar nisbi qazancdan irəli gələn qayğıları bu və ya digər şəkildə aradan qaldıraraq sərbəst ticarətin baş tutmasını və dayanıqlılığını təmin edir [1, s. 191]. Burada nisbi qazancla bağlı qayğıların əleyhinə daha üç arqument səsləndirilir: birincisi, müasir sənaye iqtisadiyyatının mürəkkəb strukturu tərəflər arasında ticari əlaqələrdən doğan nisbi qazancın dəqiq hesablanmasını qeyri-müəyyən edir. İkincisi, inkişaf etmiş kapitalizm sənayesində dəyişikliklər ləng yox, tez və çevik baş tutur. Başqa sözlə, itkilər və qazanc daimi və ya uzunmüddətli xarakter daşımır. Üçüncüsü, müasir kapitalist sənaye cəmiyyətləri çoxsektorludur. Yəni məhsul və xidmətlərin sərbəst hərəkəti nəticəsində dövlətin bir iqtisadi sahəsi itkilərə məruz qaldığı halda, digər sahə və ya sahələr sərbəst ticari münasibətlərdən qazanc əldə edə bilər [1, s. 191-192]. Sadalanan amillər liberal beynəlxalq nizam çərçivəsində sərbəst ticari münasibətlərin daha fundamental prinsiplərə söykəndiyini nümayiş etdirir.

Beşincisi və sonuncusu, liberal beynəlxalq nizamın üzvü olan dövlətlərin vətəndaşlarının ümumi və ya oxşar xüsusiyyətləri özündə əks etdirən kimliyi bölüşməsi də bu nizamın əsas xüsusiyyətləri sırasında yer alır. Realist baxışlara görə dünya milli-dövlətlərdən təşkil olunub. Liberal nəzəriyyənin tərəfdarları bu arqumenti inkar etmir, onun digər hissəsi – insanların həyatında milli kimliklərin dominant rolunu mübahisələndirir. Belə ki, realistlərə görə beynəlxalq sistemin anarxik keyfiyyətindən və müharibələrin qaçılmaz olmasından irəli gələrək dövlət öz vətəndaşları arasında milli kimlik formalaşdırmalı və onu daim gücləndirməlidir. Çünki liberal dövlət naminə ölümü gözə almaq şərtilə insanları döyüş meydanına yollamaq üçün səbəblər tapmaq kifayət qədər mürəkkəbdir. Doydney və İkenberri isə iddia edir ki, liberal beynəlxalq nizam çərçivəsində yaşayan insanlar müəyyən oxşar dəyərləri özündə birləşdirən Qərb vətəndaş kimliyinə sahibdirlər. Bu dəyərlərə siyasi demokratiya, konstitusional hökumət, fərdi hüquqlar, özəl əmlaka əsaslanan iqtisadi sistem və etnik və dini sahələrdə müxtəlifliyə dözüm daxildir [1, s. 193]. Qərb vətəndaş kimliyi xüsusilə kapitalist iqtisadiyyatına və onun cəmiyyət üçün doğurduğu nəticələrə də bağlıdır. Başqa sözlə, istehlak mədəniyyəti Qərb vətəndaş kimliyinin mühüm aspektinə çevrilib [1, s. 193-194]. Vətəndaş və kapitalist kimliyi gücləndikcə isə etnik və milli bağlara söykənən kimliklər zəifləməyə başlayır. Nəticədə iki xüsusiyyət özünü büruzə verir: birincisi, əvvəllər homogen və ya dominant rolunu oynayan kimlik formaları – milliyyətə, etnik yaxud dini qrupa bağlılıq Qərb vətəndaşının digər çoxsaylı kimliklərindən sadəcə birini təşkil edir. İkincisi, fərqli etnik və dini qruplara, o cümlədən millətlərə mənsub fərdlərə qarşı tolerantlıq Qərb siyasi mədəniyyətinin əsas təzahür elementlərindən birinə çevrilir [1, s. 194].

SSRİ süqut etdikdən sonra Qərb beynəlxalq liberal nizamı miqyasca genişlənməyə başladı. Bu genişlənmə Şərqi Avropadakı keçmiş kommunist blokuna üzv dövlətlərin NATO və Avropa İttifaqı kimi institutlara qoşulması, yalnız Qərb dövlətlərinin qoşulduğu Tariflər və Ticarət haqqında Ümumi Anlaşma əsasında 1995-ci ildə Ümumdünya Ticarət Təşkilatının yaradılması və s. əlamətlərlə özünü büruzə verirdi. Lakin son on ildə dünyada baş verən siyasi proseslər bu struktur elementlərin necə zədələndiyini, hətta "sağ qalmaq uğrunda" mübarizə apardığını nümayiş etdirir. Xüsusilə də 2016-cı ildə Birləşmiş Krallığın Avropa İttifaqını tərk etməsi və elə həmin ildə ABŞ-də Donald Trampın hakimiyyətə gəlməsi və liberal beynəlmiləlçiliyin ziddinə gedən xarici siyasət həyata keçirməsi, COVİD19 pandemiyası, gəlirlərin qeyri-bərabər bölgüsü, Çinin yüksəlişi, Ukraynada və Qəzzada davam edən müharibələr bu nizamın dayanıqlılığını əhəmiyyətli dərəcədə sarsıtmış və sarsıtmaqdadır. Həmçinin Soyuq müharibədən sonra liberalizmin elmi-nəzəri əsaslarında müşahidə edilən ziddiyyətlər də daha qabarıq şəkildə ortaya çıxmağa başladı [6, s. 57]. Bu şərtləri nəzərdən keçirərkən bəzi müəlliflər liberal beynəlxalq nizamın artıq sona çatdığını iddia edir [9]. Başqa qrup müəlliflər isə problemin bu nizamın aparıcı gücü olan ABŞ-nin öz mövqeyini

və nüfuzunu əhəmiyyətli dərəcədə itirməsi ilə əlaqələndirir və nizamın sadəcə keyfiyyət dəyişikliyinə məruz qaldığını qeyd edir [5, s. 17-21]. Lakin qeyd olunan iddialar məqalənin mövzusunu əhatə etmədiyi üçün burada ətraflı müzakirə edilmir və sadəcə liberal beynəlxalq nizam çərçivəsində müşahidə edilən son tendensiyalardan xəbər verir.

**YEKUN NƏTİCƏ**

Beləliklə, yuxarıda sadalanan beş amil birlikdə Soyuq müharibə dövründə mövcud Qərb liberal beynəlxalq nizamının struktur elementlərini təşkil edir. Bu elementlər neorealist müəlliflərin Soyuq müharibə dövründə Qərb nizamının formalaşma mənbələri ilə bağlı irəli sürdüyü arqumentlərə müxalif olmaqla yanaşı alternativ liberal nəzəriyyənin əsaslarını təşkil edir. Onları qısaca ümumiləşdirək:

1. Dövlətlərin onların suverenliyini müəyyən dərəcədə çərçivələyən beynəlxalq yaxud regional institutlara üzv olması birgə qoşulma adlanır. Nəticədə beynəlxalq sistemin anarxik olmasından irəli gələn davranış stimulları neytrallaşdırılır və dövlətlər arasında həm hərbi-təhlükəsizlik, həm də iqtisadi sahədə əməkdaşlığın qurulması mümkün olur;

2. ABŞ-nin siyasi sistemi və transmilli münasibətlər imkan verir ki, ikinci dərəcəli və zəif dövlətlər də nizam çərçivəsində qəbul edilən qərarlara təsir etsinlər, öz maraqlarını ifadə etsinlər və reallaşdırmağa çalışsınlar;

3. İkinci Dünya Müharibəsindən sonra Almaniya və Yaponiyanın sülhpərvər konstitusiya qəbul etməsindən, həmçinin nüvə silahına sahib olmaqdan imtina etməsindən irəli gələrək yarısuveren statusa malik olması və qismən böyük güc hesab edilməsi də neorealist nəzəriyyənin prinsipləri ilə ziddiyyət təşkil edir. Hər iki dövlət Soyuq müharibə dövründə tam suverenliyə can atmamış və böyük güclər sırasında qərarlaşmamışdılar;

4. Nizama üzv dövlətlər arasında azad ticarət münasibətlərin qurulması dayanıqlı xarakter almışdır. Neorealistlərin arqumentlərinin əksinə olaraq yuxarıda müzakirə edilən səbəblərə görə nisbi qazancla bağlı qayğılar məhsul və xidmətlərin sərbəst hərəkətinə hər hansı əngəl törətməmişdir, əksinə azad ticari münasibətlər daha da inkişaf etmişdir;

5. Oxşar xüsusiyyətləri və dəyərləri özündə ehtiva edən ümumi Qərb kimliyinin formalaşması milli kimliyə ciddi zərbə vuraraq onun əhəmiyyətini və siyasi qərarlara təsir imkanlarını azaltmışdır.

## ƏDƏBİYYAT

1. Deudney, Daniel and Ikenberry, G. John. The nature and sources of liberal international order // Review of International Studies, – 1999, 25, – p. 179-196.
2. Gilpin, Robert. War and Change in World Politics / R.Gilpin. – Cambridge University Press, – 1981. – 287 p.
3. Ikenberry, G. John. Liberal Internationalism 3.0: America and the Dilemmas of Liberal World Order // Perspectives on Politics, – 2019, 7 (1), – p. 71-87.
4. Ikenberry, G. John. Liberal Leviathan: The Origins, Crisis and Transformation of the American World Order // Princeton University Press, – 2011. – 373 p.
5. Ikenberry, G. John. The end of liberal international order? // International Affairs, – 2018, 94 (1), – p. 7-23.
6. Jahn, Beate. Liberal internationalism: historical trajectory and current prospects // International Affairs, – 2018, 94 (1), – p. 43-61.
7. Mearsheimer, John J. Back to the Future: Instability in Europe after the Cold War // International Security, – 1990, 15 (1), – p. 5-56.

8. Mearsheimer, John J. Bound to Fail: The Rise and Fall of the Liberal International Order // International Security, – 2019, 43 (4), – p. 7-50.
9. https://foreignpolicy.com/2016/06/26/the-collapse-of-the-liberal-world-order-european-union-brexit-donald-trump/
10. Waltz, Kenneth N. Theory of International Politics // Addison-Wesley Publishing Company, – 1979, – 255 p.

## LIBERAL INTERNATIONAL ORDER AND ITS FEATURES DURING THE COLD WAR

**R.H. Ibrahimov**

This article emphasises the main features of the liberal international order during the Cold War. The introductory part of the article discusses the concept of order and the ideas of John Mearsheimer, one of the leading scholars of the realist school, regarding order, and states that Ikenberry and Doydney are trying to respond to neorealists' arguments through the theory of structural liberalism. Then, I briefly touch on why and how the liberal international order was formed after World War II. The next section focuses on the theory of structural liberalism put forward by John Ikenberry and Daniel Deudney and here co-binding, penetrated reciprocal hegemony, the semi-sovereign and partial great power status of Germany and Japan, the free movement of goods and services between liberal democracies and a common civic identity of Western citizens that includes similar values are seen as key features of the liberal international order.

**Keywords:** *liberal international order, Cold war, USA, hegemon, West*

## ЛИБЕРАЛЬНЫЙ МЕЖДУНАРОДНЫЙ ПОРЯДОК И ЕГО ОСОБЕННОСТИ В ПЕРИОД ХОЛОДНОЙ ВОЙНЫ

**Р.Х. Ибрагимов**

В этой статье анализируются основные черты либерального международного порядка времен Холодной войны. Во вступительной части статьи рассматривается концепция порядка, а также идеи одного из ведущих представителей реалистической школы Джона Миршаймера относительно данной темы. Кроме того, утверждается, что Айкенберри и Дойдни предпринимают попытки ответить на аргументы неореалистов, используя подход теории структурного либерализма. Далее я кратко рассматриваю предпосылки и процессы формирования либерального международного порядка, который утвердился после Второй мировой войны. Следующий раздел посвящен теории структурного либерализма, выдвинутой Джоном Айкенберри и Дэниелом Дьюдни и здесь политика совместной привязки, проникнутая взаимная гегемония, полусуверенный и частично великий статус Германии и Японии, свободное перемещение товаров и услуг между либеральными демократиями и общая гражданская идентичность западных граждан, включающая схожие ценности, рассматриваются как ключевые черты либерального международного порядка.

**Ключевые слова:** *либеральный международный порядок, Холодная война, США, гегемон, Запад*